**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

Azərbaycan Respublikası
Təhsil Nazirliyinin
F-395 nömrəli 04.09.20 il tarixli
qərarı ilə təsdiq edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI
VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ İLƏ İŞ ... KOMMUNİKASİYA ŞÖBƏSİ
... NAZİRLİYİ

ƏSLİ İLƏ DÜZDÜR

**BAKALAVRİAT SƏVİYYƏSİNİN**

**MUSİQİŞÜNASLIQ İXTİSASI ÜZRƏ**

# TƏHSİL PROQRAMI

İxtisasın şifri və adı: 050309 Musiqişünaslıq

BAKI – 2020

## BAKALAVRİAT SƏVİYYƏSİNİN MUSİQİŞÜNASLIQ İXTİSASI ÜZRƏ TƏHSİL PROQRAMININ ÇƏRÇİVƏ SƏNƏDİ

### 1. Ümumi müddəalar

1.1. Bakalavriat səviyyəsinin 050309 Musiqişünaslıq ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na uyğun hazırlanmışdır.

1.2. Təhsil Proqramının məqsədləri aşağıdakılardır:

- İxtisas üzrə məzunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübə keçmə, işə düzəlmə və təhsilini artırma imkanlarını müəyyənləşdirir;
- Tələbələri və işəgötürənləri məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq;
- Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı bu prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq.

1.3. Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilatı-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə bakalavr (əsas (baza) tibb) hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50 %- dən çox olmamalıdır. İxtisasın xüsusiyyətindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

### 2. Məzunun kompetensiyaları

**2.1. Musiqişünaslıq ixtisası üzrə Təhsil Proqramının sonunda məzun aşağıdakı ümumi kompetensiyalara yiyələnməlidir:**

- İxtisası üzrə Azərbaycan dilində şifahi və yazalı kommunikasiya bacarıqlarına;
- İxtisası üzrə ən azı bir xarici dildə kommunikasiya bacarıqlarına;
- Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma qabiliyyətinə;
- Milli dövlətimizin qarşılaşdığı təhdidləri və çağırışları müəyyən etmə bacarıqlarına;
- İş yerində informasiya texnologiyalarından istifadə etmək qabiliyyətinə;
- Komandada iş, problemin həllinə ortaq yanaşmaya nail olmaq qabiliyyətinə;
- Yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə;
- Məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyətinə;
- Peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirmək və tətbiq etmək bacarıqlarına;
- Peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirilmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyətinə;
- Fəaliyyətində sosial və ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuru və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına;
- Bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığına.

- Musiqişünas, mühazirəçi kimi mədəniyyətlər arası dialoqa hazır olmaq bacarığına;
- Yaxın sahələrin mütəxəssisləri ilə ünsiyyətdə olaraq öz səviyyəsini zənginləşdirmək qabiliyyətinə;
- Yüksək səviyyəli professional olaraq beynəlxalq arenada işləmək qabiliyyətinə;
- Musiqişünas-tədqiqatçı kimi yeni ideyalar irəli sürmək, əsaslandırmaq və hazırlayıb, ictimayyətin diqqətinə təqdim etmək qabiliyyətinə;
- Musiqişünas, muhazirəçi, radio və televiziyada musiqi verilişlərinin aparıcısı kimi fikrini düzgün və yığcam ifadə etmək qabiliyyətinə;
- Müasir və innovativ üsulları istifadə edərək öz peşəkarlığının artırılmasına çalışmaq bacarığına;
- Yaradıcılıq fəaliyyətinin nəticələrini proqnozlaşdırmaq üçün musiqi elmi yeniliklərini tətbiq etmək qabiliyyətinə;

-Musiqi kollektivlərində öz həmkarları ilə birgə işləməyi ,optimal qərarları qəbul etməyi bacarmaq , idarəetmənin metodlarına yiyələnmək bacarıgına.

2.2. **050309 - Musiqişünaslıq ixtisası üzrə** Təhsil Proqramının sonunda məzun aşağıdakı peşə kompetensiyalara yiyələnməlidir:

- Musiqişünas, mühazirəçi,tənqidçi ,lektor,müəllim,tədqiqatçı, folklorçu, radio və televiziyada musiqi verilişlərinin aparıcısı kimi çıxış etmək qabiliyyətinə;

- Tədris materiallarının elmi əsaslarını bilmək və onu tədris etməyi bacarmaq, not materialları ilə tanış olmaq,ifa etmək və təhsil alana təqdim etmək bacarıgına;

- Musiqişünaslıq fəaliyyəti sahəsinə aid olan fənlərin əsas problemlərini onların konkret tətbiq sahələrini bilmək bacariğına;

-Elektron kitabxanalardan, fonotekadan ,musiqi ədəbiyyatından ,referativ jurnallardan , internetden yeni məlumatları , musiqi tarixi və nəzəriyyəsinin alternativ pozisiyalarını əldə etmək və təqdim etmək bacarıgına;

-Musiqişünaslıq ixtisası ilə bağlı tədris prosesində müasir və innovativ üsulları tətbiq etmək qabiliyyətinə;

-Musiqi elmi ilə bağlı qarşıya müəyyən vəzifələri qoymağı, onları həll etməkdə müvafiq innovativ və müasir metodları seçməyi və tətbiq etmək bacarığına;

-Müəllimlik fəaliyyətində tələbələrin və şagirdlərin dərs prosesində istifadə etməsi üçün elmi- metodik və didaktik vəsait hazırlamağı bacarığına;

-Musiqişünaslıq sahəsində qazanılmış bilik , bacarıq və vərdişlərə uyğun olaraq , müvafiq təhsil sahələrində kompleks məsələlərin həllində iştirak etməyə hazır olmaq bacarığına;

-Musiqişünaslıq ixtisası üzrə müvafiq fənlərin tədrisi ilə bağlı bilikəri təqdim etmək və onları iş şəraitinə adaptasiya etmək bacarığına;

- Musiqi məktəblərində şagirdlərlə ünsiyyət yaratmaq və musiqi mədəniyyətinə maraq oyatmaq bacarığına.

## 3. Təhsil Proqramının strukturu

3.1. **050309 - Musiqişünaslıq ixtisası üzrə** Təhsil Proqramı 240 kreditindən ibarətdir.

Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

*Cədvəl 1*

| Fənlərin sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| | Ümumi fənlər | |
| 1 | **Azərbaycan tarixi**<br>Bu fənn Azərbaycanın müasir dövlətçilik ənənələrinin yaranması, formalaşması və inkişafını sistemli şəkildə, xronoloji ardıcıllıqla öyrənir, müasir Azərbaycan dövlətçiliyinin formalaşmasında siyasi, ideoloji, iqtisadi, mədəni amillərin rolunu təhlil və tədqiq edir. Müasir dünyada Azərbaycan dövlətinin yeri və yolu sistemli təhlil edilir. | 5 |
| 2 | **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya**<br>Bu fənn çərçivəsində tələbələr yazılı və şifahi nitq mədəniyyətinə, auditoriya və işəgötürən qarşısında təqdimat etmək, alınma sözləri düzgün tələffüz etməklə ixtisas üzrə akademik terminologiyaya, mətnlər üzərində iş və işgüzar yazı bacarıqlarına yiyələnməlidirlər. | 4 |
| 3 | **Xarici dildə işgüzar və akademik kommunikasiya**<br>Bu fənn çərçivəsində tələbələr tədris olunan xarici dildə ixtisas üzrə terminologiyanı öyrənməli, Azərbaycan, Bakı, özü və sənəti haqqında təqdimat etmək, işgüzar yazı, şifahi ünsiyyət bacarıqlarına yiyələnməlidirlər. | 15 |
| 4 | **Seçmə fənlər** (*Seçmə fənlər ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir. İxtisasın spesifikasından asılı olaraq seçməfənlərə əlavələr edilə bilər* ). | |
| 4.1 | Fəlsəfə<br>Sosiologiya<br>Hüququn əsasları<br>Məntiq<br>Etika və estetika | 3 |
| 4.2 | İnformasiya texnologiyaları (ixtisas üzrə)<br>İnformasiyanın idarə edilməsi<br>Sahibkarlığın əsasları və biznesə giriş | 3 |
| | **İxtisas fənləri** | |
| 5 | Xarici musiqi tarixi<br>Bu fənn çərçivəsində tələbələr xarici musiqi sənətinin inkişaf tarixini, musiqi janrları və üslubların tarixini, xarici bəstəkarlıq məktəblərinin dünya musiqi tarixində rolunu və görkəmli bəstəkarların yaradıcılığını bilməlidir. | 12 |
| 6 | Azərbaycan musiqi tarixi<br>Bu fənn çərçivəsində tələbələr Azərbaycan musiqi tarixinin inkişaf mərhələlərini anlamalı, Azərbaycan bəstəkarlarının yaradıcılığını, janr və üslub xüsusiyyətlərini bilməlidir. | 12 |
| 7 | Harmoniya<br>Bu fənn çərçivəsində tələbələr harmoniyanın təkamül prosesini musiqi tarixi ilə əlaqədə anlamalıdılar, harmonik nəzəriyyələrin mahiyyətini, təhlilin metod və prinsiplərini dərk etməlidilər, harmonik qanunları bilməlidir. | 12 |
| 8 | Solfecio<br>Bu fənn çərçivəsində tələbələr musiqi üslublarının məqam və ritm xüsusiyyətlərini seçməyi melodiyanı eşitmə yolu ilə notlaşdırmağı bacarmalıdılar, xalq və bəstəkar əsərlərinin melodik xəttini, müxtəlif məqam sistemləri sərbəst ifa etməlidir. | 7 |
| 9 | Muğam<br>Bu fənn üzrə tələbələr muğam janrının tarixi prosesdə öyrənilmə mərhələlərini, onun elmi, ədəbi və poetik mənbələrdə təzahür ünsürlərini, muğamlar üzrə ifaçılıq sənətinin tədrisi məsələlərini, bəstəkar yaradıcılığında istifadə xüsusiyyətlərini, eləcədə vokal-instrumental və | 6 |

| | | |
|---|---|---|
| | instrumental şəkildə mövcüd olan not məcmuələrini bilməlidirlər. Həmçinin əsas muğam dəstgahlarının hər birini çalmağı, səsə təyin etməyi, onları nəzəri olaraq məgam, forma, melodika və s.bu kimi əsas nəzəri aspektlər əsasında təhlil etməyi bacarmalıdır. | |
| 10 | İxtisasın tədris metodikası<br>Bu fənn çərçivəsində tələbələr musiqi nəzəri fənnlərə aid metodikaları istifadə etməyə bacarmalı, musiqi nəzəri sistemləri və metodları təhlil etməyə və metodik araşdırmalar aparmağa malik olmalıdılar. | 5 |
| 11 | Mülkü müdafiə<br>Bu fənn mülki müdafiənin əsaslarından, işci qüvvəsi və texniki vasitələrindən bəhs etməlidir. Fövqaladə hallarda insanların üzərinə düşən vəzifələrin, özünümüdafiə tədbirləri üzrə biliklərin mənimsənilməsini nəzərdə tutmalıdır. | 3 |
| 12 | Multikulturalizmə giriş<br>Bu fənn çərçivəsində tələbələr multikulturalizmi bir sosial hadisə, ideologiya, siyasət, həyat tərzi kimi təqdim etməyi, müasir dövrdə onun əhəmiyyətini göstərməyi, dünya dövlətlərinin, o cümlədən Azərbaycanın multikulturalizm sahəsində tarixi təcrübəsini bilməlidir. Tolerantlıq ənənələrini möhkəmləndirmək və inkişaf etdirmək, etnik-milli müxtəlifliyin tənzimlənməsində multikulturalizmin əhəmiyyətini, ünsiyyət zamanı dünya dövlətlərinin mütərəqqi təcrübəsi ilə xarici tələbələri tanış etmək; ölkənin sosial-iqtisadi inkişafı arasında qarşılıqlı münasibətləri izah etməyi bacarmalıdırlar. | 3 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər** | **120** |
| | **Təcrübə və Yekun Dövlət Attestasiyası** | 30 |
| 13 | **Təcrübə** | 21 |
| 14 | **Yekun Dövlət Attestasiyası** | 9 |

## 4. Tədris və öyrənmə

4.1. Tədris və öyrənmə mühiti elə təşkil olunmalıdır ki, tələbələr təhsil proqramında nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər.

4.2. Tədris və öyrənmə metodları müvafiq sənədlərdə (məsələn, müəllimin sillabusunda və s.) təsvir edilməli və ictimaiyyətə (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.) açıq olmalıdır .

4.3. Tədris və öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Tədris və öyrənmə metodlarının müntəzəm şəkildə təkmilləşdirilməsi universitetin keyfiyyət təminatı sistemin bir hissəsi olmalıdır.

4.4. Təlim prosesində fərqli tədris metodlarından istifadə edilməlidir. Bu metodlar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək tədris və öyrənmə metodlarına nümunə olaraq aşağıdakıları göstərmək olar:

- şifahi təqdimatlar və müzakirələr, debatlar;
- müstəqil iş/araşdırma, tədqiqat işi (məsələn, praktiki nümunələrlə iş, illustrasiya);
- layihələr;
- prezentasiyalar;
- konsertlər;
- slayd şoy;
- ekspedisiyalar;
- açıq dərslər;
- vebinarlar;
- veb-saytlarin yaranması;
- müsahibə,
- diskussiya, dəyirmi masa,
- interaktiv təlim,
- konsert, musiqili tədbirlərin təşkili;
- tədbirlərin ssenariyasının hazırlanması;
- problemlərə əsaslanan tədris;
- sahə işləri;
- rol oyunları;
- hesabatlar;
- ekspert metodu;
- video və audio konfrans texnologiyaları;
- video və audio mühazirələr;
- distant təhsil;
- simulyasiyalar;
- və s.

4.5. Təhsildə nəzəriyyə və praktiki təlim arasında tarazlıq gözlənilməlidir. Əsas diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq praktiki bacarıqların gücləndirilməsinə yetirilməlidir.

4.6. Təhsil proqramı tələbələrin müstəqilliyini dəstəkləməli və ömürboyu təlim konsepsiyasını inkişaf etdirməlidir. Təhsil prosesinin sonunda tələbə hər hansı istiqamətdə müstəqil işləyə bilməli və təhsilini ömürboyu davam etdirməyi bacarmalıdır.

## 5. Qiymətləndirmə

5.1. Qiymətləndirmə elə təşkil olunmalıdır ki, tələbələrin gözlənilən təlim nəticələrini əldə etmələri səmərəli şəkildə ölçülə bilinsin. Bu, əldə olunan irəliləyişi monitorinq etməyə, təhsil proqramlarının nəticələrinə hansı dərəcədə nail olunduğunu qiymətləndirməyə, eləcə də tələbələrlə fikir mübadiləsinə şərait yaratmağa və təhsil proqramlarının təkmilləşdirilməsi üçün ilkin şərtlərin formalaşdırılmasına yardım etməlidir.

5.2. Qiymətləndirmə üsulları müvafiq sənədlərdə (məsələn, fənn proqramında, sillabusda və s.) təsvir edilməli və hamı üçün açıq olmalıdır (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.).

5.3. Qiymətləndirmə üsulları innovativ tədris təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Qiymətləndirmə üsullarının müntəzəm şəkildə yenilənməsi ali təhsil müəssisəsinin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

5.4. Tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilməlidir. Bu üsullar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək qiymətləndirmə üsullarından nümunələr:

- yazılı tapşırıqlar;
- bilik və bacarıqlara dair testlər, kompyuter əsaslı testlər;
- şifahi və slayd-şoy ilə təqdimatlar;
- prezentasiyalar;
- konsertlər;
- ekspedisiyalara dair hesabatlar;
- açıq dərslər haqqında hesabatlar;
- tədqiqat işi/araşdırmalar;
- sorğular;
- açıq müzakirələr;
- praktika hesabatları, sahə işləri hesabatları;
- praktikada müşahidələrə əsasən bacarıqların qiymətləndirilməsi;
- layihə işlərinə dair hesabatlar;
- frontal sorğu;
- qrup şəkildə və özünü qiymətləndirmə;
- və s.

5.5. Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmalıdır və təhsil müddətində tələbənin əldə etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verməlidir. Təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllimlər şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörmət və humanistlik prinsiplərini rəhbər tutmalıdırlar.

5.6. Tələbələrə müəllimlərlə/qiymətləndiricilərlə təhsillərinin bütün aspektlərini, o cümlədən qiymətləndirilmə prosesini müzakirə etmək imkanı verilməlidir. Ali təhsil müəssisəsi müvafiq qaydalara uyğun olaraq qiymətləndirmə prosesi, yaxud qiymətlə bağlı apelyasiya prosedurlarını müəyyən etməlidir.

5.7. Akademik etika təhsil prosesində önəmli yer tutur. Tələbələrə akademik dürüstlüyə riayət etmək, plagiarizm problemini anlamaq öyrədilir. Onlar intellektual əməyin əqli mülkiyyət hüquqları barəsində məlumatlandırılmalıdırlar.

## 6. Proqramın və hər bir fənnin təlim nəticələri

6.1. Təhsil proqramının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətinin səlahiyyətindədir.
6.2. Təlim nəticələri hər bir ali təhsil müəssisəsi tərəfindən Əlavə 1-dəki formaya uyğun olaraq müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.
6.3. Təhsil Proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 7. İnfrastruktur və kadr potensialı

7.1. Təhsil Proqramının tədris, öyrənmə və qiymətləndirmə prosesi ali təhsil müəssisəsinin aşağıdakı infrastruktura malik olmasını zəruri edir:

Musiqişünaslıq ixtisası üzrə təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və elmi tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş infrastruktura malik olmalı; kitabxana, elektron kitabxana və elekron jurnalları, elektron dərslik və dərs vəsaitləri, elektron səsyazma kabineti, "Azərbaycan ənənəvi musiqisi və müasir texnologiyalar" tədris laboratoriyası, "Milli musiqi alətlərinin təkminləşdirilməsi laboratoriyası, musiqi alətləri, Lola audiovizual sistemi, orta ixtisas məktəb-studiya, opera studiyası, gimnaziya və kolleclər, akustik emalatxana və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsilalanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarının axtarış sistemlərinə çıxışı, musiqi texnologiyalarının istifadəsi təmin edilməlidir.

7.2 Ali təhsil müəssisələrinin professor-müəllim heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olmalıdır..
Digər dövlət, yaxud özəl müəssisələrdən və ya müvafiq təşkilatlardan gələn yüksək ixtitsaslı mütəxəssisləri də tədrisə cəlb etmək olar.

## 8. Təcrübə

8.1. Təcrübə tələbənin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir.
8.2. Təcrübə özəl şirkətdə, dövlət müəssisəsində, tədqiqat laboratoriyasında (eləcə də universitet, AMEA, özəl yerli, yaxud beynəlxalq təşkilat və şirkətlər və s.) təşkil olina dilər.
8.3. Təcrübədən öncə ali təhsil müəssisəsi və təcrübə təşkil olunacaq şirkət/müəssisə/laboratoriya müqavilə imzalanmalıdır. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasına uyğun digər şirkət/müəssisə/laboratoriyada, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir. Müqavilədə şərtlər, tələbələrin hüquq və öhdəlikləri və digər zəruri təfərrüatlar öz əksini tapmalıdır.
8.4. Təcrübənin qiymətləndirilməsi:
**050309 – Musiqişünaslıq ixtisası üzrə** bakalavr hazırlığında lektor və pedaqoji təcrübələr nəzərdə tutulur.Təcrübələr növündən asılı olaraq müvafiq idarə, təşkilatlarda, kollejlərdə, musiqi məktəblərdə, məsələn, orta ixtisas musiqi məktəb-studiyasında və s. keçirilə bilər. Təcrübənin qiymətləndirilməsi aşağıda sadalanan məlum üsullar əsasında 100 ballıq sistem ilə həyata keçirilir. Bu üsullar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təmin etməlidir.

İstifadə edilə biləcək qiymətləndirmə üsulları:

- Açıq dərslər;
- Şifahi təqdimatlar;
- Mühazirə-prezentasiyalar;
- Slayd-şoy;
- Şagirdlərin iştirakı ilə sərbəst və mövzu üzrə onlayn konfranslar
- Şifahi və yazılı hesabatlar;
- Onlayn hesabatlar

Qiymətləndirmə ixtisası uyğun gələn və kifayət qədər iş təcrübəsi olan professor-müəllim heyəti sırasından təcrübə rəhbəri və müvafiq kafedra müdirlərinin səlahiyyətində olmalıdır. Təcrübənin aparıldığı müəssisənin tərəfindən təyin edilmiş təcrübə rəhbərinin rəyi qiymətləndirmə prosesində labütdür.

## 9. Buraxılış işi

9.1. Musiqişünaslıq Təhsil Proqramı buraxılış işi ilə tamamlanır.

9.2. Buraxılış işinin qiymətləndirilməsi

Tədris planının bütün şərtlərini yerinə yetirmiş , o cümlədən nəzərdə tutulmuş cari attestasiyalardan (fənlər üzrə attestasiyalarda) müvəffəqiyyətlə keçmiş tələbələr Yekun Dövlət Attestasiyaya buraxılırlar . Yekun Dövlət Attestasiyası musiqişünaslıq ixtisası üzrə Buraxılış işinin müdafiəsindən ibarətdir.

Bakalavriat səviyyəsinin musiqişünaslıq təhsil programı üzrə tədris planını tam yerinə yetirmiş tələbələr Buraxılış işinin müdafiəsinə buraxılıb, Dövlət Attestasiya Komissiyası tərəfindən 100 ballıq sistem ilə giymətləndirilir. İstifadə edilə biləcək qiymətləndirmə üsulları:

- Buraxılış işinin şifahi təqdimatı;
- Prezentasiya;
- Slayd-şoy;
- Onlayn təqdimatı

Bakalavriat səviyyəsində tələbələrin topladığı kreditlərin sayı 240 olmalıdır . Musiqişünas İxtisası üzrə təhsil proqramında nəzərdə tutulmuş kreditləri toplayan tələbə həmin proqramı mənimsəmiş hesab edilir. Ali təhsil müəssisələrində bakalavriat səviyyəsinin təhsil proqramı üzrə tədris planını tam yerinə yetirmiş şəxslərə Dövlət Attestasiya Komissiyasının qərarı əsasında “bakalavr” ali peşə -ixtisas dərəcəsi verilir .

## 10. Məşğulluq və ömürboyu təhsil

10.1. **050309 - Musiqişünaslıq Təhsil Programının** məzunları Pedagoji, Musiqişünaslıq, Maarifləndirici Təşkilatçılıq sahələrində Musiqişünas, mühaziraçi,tənqidçi,lektor, müəllim, tədqiqatçı, folklorçu, musiqi redaktoru, radio və televiziyada musiqi verilişlərinin aparıcısı kimi peşələrdə işləyə bilərlər.

**Pedaqoji fəaliyyət üzrə:**

-orta ixtisas musiqi məktəblərində, uşaq musiqi məktəblərində, musiqi kolleclərdə müəllim vəzifəsində pedaqoji fəaliyyət göstərmək;

-orta ixtisas təhsili müəssisələrində şagirdlərlə maarifləndirici işlərin aparılması ,musiqi tədbirləri ilə əhali arasında, xüsusən uşaq və gəncləri cəlb etməklə , Azərbaycan musiqi mədəniyyətinin təbliği üsullarına tətbiq edə bilmək.

**Musiqişünaslıq sahəsi üzrə :**

-musiqişünaslıq fəaliyyətini həyata keçirmək ,elmi-tədqiqat araşdırmaları ilə məşğul olmaq, lektor və tənqidçi, musiqi redaktoru, radio və televiziyada musiqi verilişlərinin aparıcısı kimi çıxış etmək, tədris və elmi-tədqiqat prosesində müasir kompüter texnologiyalarının nailiyyətlərini, onlayn internet vasitələri təyinat üzrə tətbiq edə bilmək.

**Təşkilatçılıq fəaliyyəti üzrə :**

- musiqi tarixi, musiqi nəzəriyyəsi, müasir musiqi texnologiyaları istiqamətləri üzrə Beynəlxalq və

Respublika onlayn və ənənəvi Elmi konfranslar, elmi nəzəri seminarlar, müsabiqələr, festivallar, konsertlər təşkil edə bilmək;

- əhali arasında, əsasən, uşaq baxçaları, məktəblərdə, uşaq evlərində, maariflәndirici musiqi tədbirləri keçirə bilmək;
- qazanılmış bilik, bacarıq və vərdişlərə uyğun olaraq , təhsil sahələrində kompleks məsələlərinin həllində iştirak etməyə hazır olmaq;
- kollektivdə öz həmkarları ilə birgə işləməyi , optimal qərarlar qəbul etməyi bacarmaq , idarəetmə və onun metodlarına yiyələnmək;

10.2 Ali təhsil müəssisəsi Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb səhifəsində yerləşdirməlidir.

10.3 Musiqişünaslıq ixtisası üzrə Bakalavr Təhsil Programının məzunları öz təhsillərini 050307 Musiqişünaslıq ixtisası üzrə Magistr programlarının bir neçə istiqamətində davam etdirə bilərlər:

- Musiqi tarixi;
- Musiqi nəzəriyyəsi;
- Etnomusiqişünaslıq;
- Musiqi texnologiyaları

10.4 Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Razılaşdırılmışdır:**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini, Elm, ali və orta ixtisas təhsil şöbəsinin müdiri

______________Yaqub Piriyev

"26" 08 2020-ci il

Mədəniyyət və incəsənət ixtisasları qrupu üzrə Dövlət Təhsil Proqramlarını hazırlayan işçi qrupun sədri

______________Ceyran Mahmudova

"25" 08 2020-ci il

Əlavə 1

**Təhsil proqramı və fənlər üzrə təlim nəticələri**

| Təhsil proqramının təlim nəticələri (PTN) |
|---|
| **PTN 1** Musiqi mədəniyyətinin tarixinə və terminologiyasına bələd olmalı, tarixi-nəzəri metodlarını anlamalı, notlaşdırmağı və innovativ üsulları istifadə edərək, musiqişünas/etnomusiqişünas kimi yeni ideyalar irəli sürməyi bacarmalıdır. |
| **PTN 2** Musiqinin tarixi və nəzəri biliklərinə müasir elmi musiqi-pedagoji təcrübəni nəzərə alaraq yiyələndirməyə, tədris prosesinin optimallaşması üşün pedagoji metodları tətbiq etməyə, elmi-metodik və didaktik vəsait hazırlamaq və ünsiyyət yaratmağa bacarmalıdır. |
| **PTN 3** Mühazirə-konsert proqramlarını lektor çıxışlarının fərqli formalarından və informasiya-kommunikasiya texnologiyalarından istifadə edərək hazırlamağa, maarifçilik məqsədi ilə musiqi əsərinin nəzəri və ifaçılıq təhlilini aparmaq, dialoq qurmaq bacarığına malik olmalıdır. |
| **PTN 4** Musiqi nəşriyyatı, bəstəkarlar, ifaçılarla müəllif hüquqları arasında qarşılıqlı münasibəti qurmalı, musiqi teatrları, konsert təşkilatları, radio və televiziyada repertuarın formalaşmasında iştirak etməli, elmi-publisistik jurnal, dövrü mətbuatın musiqi bölmələrinə daxil olan materialları musiqi redaktoru kimi çapa hazırlamağı bacarmalıdır. |
| **PTN 5** Musiqi tarixi və nəzəriyyəsinin ümumi problemlərinə bələd olmalı, müxtəlif janra aid olan tənqidi işləri yazmağa bacarmalı, musiqi tənqidçisi kimi tənqidi çıxışın başlıca ünsürləri olan təsvir, təhlil, şərh, qiymətləndirməyə malik olmalı, musiqi jurnalisti kimi fəaliyyət göstərməlidir. |
| **PTN 6** Musiqili radio və televiziya verilişi ssenarisinin yazılma qaydalarını bilməli, verilişləri hazırlamağa və aparmağa radio və televiziya musiqi verilişlərinin aparıcısı kimi fəaliyyət göstərməlidir. |

| Xarici musiqi tarixi fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1** Musiqi sənətinin inkişaf tarixini bilməlidir |
| **FTN 2** Musiqi janrlarının tarixini anlamalıdır |
| **FTN 3** Musiqi üslublarının xüsusiyyətlərini mənimsəməlidir |
| **FTN 4** Xarici bəstəkarlıq məktəblərinin dünya musiqi tarixində rolunu bilməlidir |
| **FTN 5** Görkəmli bəstəkarların yaradıcılığını səciyyələndirməlidir |
| **FTN 6** Musiqi əsərlərini tanımalı və təhlil etməyi bacarmalıdır, professional leksikaya malik olmalıdır |

| Azərbaycan musiqi tarixi fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1** Azərbaycan musiqisinin təkamülü və inkişaf tarixini bilməlidir |
| **FTN 2** Azərbaycan bəstəkarlıq məktəbinin tarixini öyrənməlidir |
| **FTN 3** Azərbaycan bəstəkarlarının yaradıcılığını mənimsəməlidir |
| **FTN 4** Azərbaycan bəstəkarlarının əsərlərini təhlil etməlidir |
| **FTN 5** Azərbaycan musiqi elminin tarixinə yiyələnməlidir, Azərbaycan musiqi terminologiyasını anlamalıdır |
| **FTN 6** Azərbaycan musiqi tarixinin özünəməxsus xüsusiyyətlərini seçməyi bacarmalıdır |

| Harmoniya fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1** Harmoniyanın təkamül prosesini musiqi tarixi ilə əlaqədə anlamalıdır |
| **FTN 2** Harmonik nəzəriyyələrin mahiyyətini dərk etməlidir |
| **FTN 3** Harmonik təhlilin metod və prinsiplərini bilməlidir |
| **FTN 4** Müxtəlif dövr xarici bəstəkarların musiqi üslubunun harmonik qanunlarını mənimsəməlidir |
| **FTN 5** Azərbaycan xalq musiqisinin harmonizə yollarına yiyələnməlidir |
| **FTN 6** Azərbaycan bəstəkarlarının harmonik üslubunu təhlil etməyi bacarmalıdır |

| Solfecio fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1** Musiqi üslublarının məqam və ritm xüsusiyyətlərini seçməyi bacarmalıdır, xalq və bəstəkar əsərlərinin melodik xəttini sərbəst ifa etməlidir |
| **FTN 2** Solo, ansambl və xor solfecionu mənimsəməlidir |
| **FTN 3** Fərqli quruluşlu musiqi səsləri, musiqi mətnini üzündən oxumağı bacarmalıdır |

| |
|---|
| **FTN 4** Müxtəlif məqam sistemli nümunələri, müxtəlif fakturalı klassik və müasir musiqinin melodikasını oxumalıdır |
| **FTN 5** Melodiyaları eşitmə yolu ilə notlaşdırmağı bacarmalıdır, musiqinin elementlərini eşitmə yolu ilə müəyyən etməlidir |
| **FTN 6** Geniş musiqi eşitmə qabiliyyətinə (melodik, harmonik, polifonik), mükəmməl ritmik hissiyatı və musiqi yaddaşına malik olmalıdır |

| **İxtisas fənninin tədris metodikası üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN 1** Musiqi nəzəri fənnlərə aid metodikaları istifadə etməyə bacarmalıdılar |
| **FTN 2** Metodik araşdırmaları aparmağa malik olmalıdılar |
| **FTN 3** Musiqi nəzəri sistemləri və metodları təhlil etməlidilər |
| **FTN 4** Musiqi tarixi sistemləri və metodları anlamalıdılar |
| **FTN 5** Müxtəlif dövrlərin Avropa musiqi panoramasını yararmağa bacarmalıdılar |
| **FTN 6** Azərbaycan musiqi tarixinin təlim-tədris metodlarına yiyələnməlidilər |

| **Muğam fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN 1** Şifahi ənənəli professional musiqinin əsasını təşkil edən muğamların maddi və mənəvi musiqi mədəniyyətimizin ən qiymətli xəzinəsini, mükəmməl quruluşu ilə yüksək zirvə nöqtesini təşkil edən bir janr olmasını və onun musiqi mədəniyyətimizdə rolu və əhəmiyyətini bilməlidir |
| **FTN 2** Şifahi şəkildə inkişaf edən muğamlar qədim əsrlərin tarixi səhifələrini açıqlayan əsas janr olduğu üçün, onun bu günki dövrə qədər çatdırılmasında müxtəlif növ əsərləri (traktatlar, kitablar, məqalələr və müxtəlif növ yazılar), ədəbi-poetik mənbələri, rəsm əsərlərini eləcə də keçilən fənn üzrə mövcud olan not nümunələrini, muğamların müasir dövrdə rolu, əhəmiyyətini və bəstəkar yaradıcılığında mövcud olan əsərləri tanımalıdır |
| **FTN 3** Muğam fənni üzrə muğam dəstgahların, zərbi-muğamların və kiçik həcmli muğamların özünəməxsus xüsusiyyətlərini, quruluşunu, formasını və digər komponentlərini bilməli və onları nəzəri olaraq təhlil etməyi bacarmalıdır |
| **FTN 4** Muğam fənni üzrə yeddi əsas muğam dəstgahının hər birisinin bütün şöbə və güşələrini bilməli və onları çalmağı bacarmalıdır |
| **FTN 5** Eşitmə yolu ilə muğam dəstgahlarını, zərbi-muğamları, kiçik həcmli muğamları tanımalı və onu təyin etməyə yiyələnməlidir |
| **FTN 6** Müstəqil əhəmiyyətə malik olan, muğam və onun növlərinin şöbələri arasında səslənən təsnif və rəngləri eşitmə yolu ilə təyin etməyi, onları çalmağa bacarmalıdır |

| **Mülki müdafiə fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN 1** Mülki müdafiə sahəsində vətəndaşların vəzifələrini bilməlidir |
| **FTN 2** Baş verə biləcək hadisələr zamanı fərdi və kollektiv mühafizə vasitələrində istifadə qaydalarını öyrənməlidir |
| **FTN 3** Baş vermiş fövqəladə hadisələr zamanı zədələnmə zonalarında zədə almış insanlara özünəyardım və qarşılıqlı ilk tibbi yardım qaydalarını öyrənməli və tətbiq etməyi bacarmalıdır |
| **FTN 4** Mülki müdafiə siqnallarını bilməli və ona uyğun hərəkət etməlidir |
| **FTN 5** Baş verə biləcək və ya baş vermiş fövqəladə hadisələr barəsində dövlət orqanlarına və qonşulara məlumat verməlidir |
| **FTN 6** Fövqəladə hadisələr zamanı müəyyən olunmuş davranış qaydalarına əməl etməlidir |

| **Multikulturalizmə giriş fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN 1** Multikulturalizmin bir siyasət modeli kimi öyrənilməsinin vacibliyini, onun etnik-mədəni və dini müxtəlifliyin tənzimlənməsinin mövcud siyasi modelləri içərisindəki üstünlüklərini mənimsəməlidir |
| **FTN 2** Kursun tədrisində əsas məqsədlərdən biri multikulturalizmin və onun ayrılmaz tərkib hissəsi olan tolerantlığın qloballaşan dünyamızda getdikcə daha çox aktuallıq kəsb etdiyini qavramalıdır |
| **FTN 3** Dini müxtəliflik şəraitində dini biliyi artıraraq, dini dözümlülüyün günümüzün vacib şərti olduğunu dərk etməlidir |
| **FTN 4** Dünyada mövcud olan əsas multikulturalizm modelləri və onların bugünkü durumu haqında biliklərini formalaşdırmalıdır |
| **FTN 5** Multikulturalizmin Azərbaycan modelinin mahiyyətini, xalqın ayrılmaz həyat tərzinə çevrilməsinin əsas səbəblərini bilməlidir |

| | |
|---|---|
| **FTN 6** | Azərbaycanda həyata keçirilən multikulturalizm siyasətinin əsas istiqamətlərini və multikulturalizmin Azərbaycan modelinin bütün dünyada böyük nüfuz qazanmasını mənimsəməlidir |

Əlavə 2

**Musiqişünaslıq**

**Təhsil Proqramının təlim nəticələrinin matrisi**

| **Blokun adı** | **Fənlərin adı** | **PTN 1** | **PTN 2** | **PTN 3** | **PTN 4** | **PTN 5** | **PTN 6** |
|---|---|---|---|---|---|---|---|
| **Humanitar fənlər** | Azərbaycan tarixi | x | x | | | | |
| | Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | x | x | x | x | x | x |
| | Xarici dildə işgüzar və akademik kommunikasiya | x | | | | | |
| **İxtisas fənlər** | Xarici musiqi tarixi | x | x | x | x | x | x |
| | Azərbaycan musiqi tarixi | x | x | x | x | x | x |
| | Harmoniya | x | x | | | | |
| | Solfecio | x | x | | | | |
| | Muğam | x | x | | | | |
| | İxtisasın tədris metodikası | x | x | | | | |
| | Mülki müdafiə | x | | | | | |
| | Multikulturalizmə giriş | x | | | | x | |